# Tarix dərslərində interaktiv təlim zamanı şagirdlərin nailiyyətlərinin qiymətləndirilməsi

**Muraz Məsim oğlu Həsənov**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** həsənovmuraz42@gmail.com

**Rəyçilər:** t.ü.e.d., dos. S.M. Seyidova,
p.ü.f.d., dos. D.M. Musayev

**Açar sözlər:** qiymətləndirmə, qrup işi, əməkdaşlıq, debat, meyar
**Ключевые слова:** оценка, групповая работа, сотрудничество, дебаты,критерии
**Key words:** assessment, group work, cooperation, debate, criteria

Məktəblərimizdə mövcud olan ənənəvi qiymətləndirmə üsulu ilə fəal təlim metodlarının tətbiq edildiyi dərslərdə şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi arasında fərq vardır. Ənənəvi təlimdən fərqli olaraq fəal təlim metodları ilə keçirilən qiymətləndirmədə şagirdlərin hər bir xüsusiyyətləri nəzərə alınır və obyektivlik gözlənilir. Artıq yeni qiymətləndirmə sistemi tətbiq olunur. Bu cür dərslərdə yeni qiymətləndirmə sistemini nəzərə almaq lazımdır. Qiymətləndirmənin obyektləri isə şagirdlərin yerinə yetirdiyi ev tapşırığı, qrupların işində və debatlarda iştirak, suallar formalaşdırmaq və tədqiqat aparmaq bacarığı ola bilər. Yaxşı təşkil edilmiş təqdimetmə şagirdlərin biliklərinin və əqli vərdişlərinin yüksək səviyyədə olması deməkdir (1, s. 693).

Təlim prosesinin səmərəliliyi şagirdlərin fərdi və kollektiv fəaliyyətinin üzvi şəkildə uyğunlaşdırılmasından əhəmiyyətli dərəcədə asılıdır. Bu mənada təlimin qrup forması daha geniş imkanlara malikdir. İlk dərslərdə qarşıya şagirdlərin təhlil, tarixi fakt və hadisələri müqayisə etmək və aydınlaşdırmaq bacarıqları sahəsindəki boşluğu doldurmaq vəzifəsi çıxır. Bu məqsədlə də şagirdlər dərsliyin mətni və müvafiq sənədlərlə müstəqil işləyir, abzaslara sərlövhələr verir, mətnə dair suallar hazırlayır, plan, cədvəl və sxem tərtib edir, bu və ya digər tarixi təzahürü müxtəlif mənbələr əsasında müqayisə edirlər.

Qruplarla iş metodundan istifadə zamanı müəllim şagirdlərə psixoloji təsir göstərir, onları həvəsləndirir, özlərinə inamı artırır. Qrup formasında aparılan dərslərdə əsas məqsəd sonda alınacaq nəticəni qiymətləndirmək deyil, bu nəticənin necə alınması, şagirdlərin nə dərəcədə aktiv, yaxud daha passiv işləməsi ilə bağlı məsələlərin araşdırılmasıdır.

Qrup işinin müvəffəqiyyəti hər şeydən əvvəl, qrupun tərkibi ilə bağlıdır. Qrup öz tərkibinə görə güclü və ya zəif şagirdlərdən ibarət ola bilər. Bu zaman müəllim tapşırığı səviyyəyə əsasən verir. Təcrübə göstərir ki, qrup həm güclü, həm orta səviyyəli, həm də zəif şagirdlərdən ibarət olduqda daha yaxşı nəticə verir. Qruplarda iş zamanı şagirdlər yarışdıqları üçün onlardan hər biri ən zəifi, hətta ən utancağı da fəallıq göstərir. Qrupun hər bir üzvü bacarığını meydana çıxarmağa, qrupunun qələbəsini təmin etməyə çalışır.

Fəal (interaktiv) təlimdə müəllimləri daha çox maraqlandıran məsələlərdən biri qrup işinin qiymətləndirilməsidir. Bu zaman çoxlu suallar yaranır:

1. Qrup işini hansı yollarla qiymətləndirmək olar?
2. Qrupun qiymətləndirməsində fərdi yanaşmanı necə tətbiq etmək olar?
3. Hansı meyarlar əsasında qrup işini qiymətləndirmək lazımdır?

Qrup işinin qiymətləndirilməsi meyar əsasında və müxtəlif vasitələr (qrafik, cədvəl, sim-

vol, söz və üsullarla (müəllim tərəfindən, şagirdlərin qarşılıqlı qiymətləndirməsi, qruplararası qiymətləndirmə və s.) keçirilə bilər (2, s. 610-611).

Qruplarla işin qiymətləndirilməsi üçün meyar cədvəli hazırlanır. Qrupların fəaliyyətini aşağıdakı meyarlara əsasən qiymətləndirmək olar:

| Qruplar | Tapşırığın vaxtında yerinə yetirilməsi | Əməkdaşlıq | Mübadilədən düzgün istifadə | Təqdim etmə | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

Cədvəldə göstərilən meyarların hamısı eyni vaxtda qiymətləndirilmir. Tapşırıq qruplara paylanıb, vaxt elan olunduqdan sonra müəllim tapşırığı düzgün yerinə yetirmə və əməkdaşlıq sütunlarına müvafiq olaraq "+" və ya "-" işarəsini qoyur. Digər meyarlar isə qrup nümayəndələrinin təqdimatı zamanı qiymətləndirilir (3, s. 58).

Debatlar hər bir kəsin müzakirədə iştirakının təmin edilməsi ilə nəticələnən xüsusi sxemdən istifadə edilən iş formalarından biridir. Diskussiyanın yalnız bir-birilərinə etiraz edən tərəflərin arasında keçdiyi mübahisə, müzakirə rəy mübadiləsi kimi məlum formalardan fərqli olaraq, debatlar opponentini deyil, üçüncü tərəfi inandırmağı nəzərdə tutur. Üçüncü tərəfin vəzifəsi hər bir tərəfin mövqeyini dinləyib, öz secimini etməkdir. Bu seçim yalnız bir şeyə bu tərəf məni inandırdı təsdiqinə əsaslanır. Beləliklə, debatlarda iştirak edən tərəflərin əsas məqsədi dəlil və sübutlarının köməyi ilə üçüncü tərəfi öz mövqeyinin düzgünlüyünə inandırmaqdır. Bu prosesin yekunları əsasında ona həmçinin qərarların qəbulu kimi baxmaq olar. Debatda məntiqi davamlılıq, faktların dəqiqliyi və auditoriyaya emosional müraciət və s. mühüm rol oynayır. Bu məsələni daha üstün kontekstdə, çərçivədə, və ustalıqla, mahircəsinə əsaslandıra bilən tərəf digərini üstələyir. Debat prosesində şagirdlər aşağıdakı bacarıq və keyfiyyətlərə nail ola bilərlər:

1. Mövzunun araşdırılması
2. Dəlillərlə iş
3. Natiqlik məharəti
4. Çarpaz sualların hazırlanması
5. Əsas anlayışlarla iş (4, s. 79-80)

Çıxışlarını hazırlayan şagirdlər onu belə təqdim edirlər. İlk öncə təsdiqedici komanda münsifləri öz mövqelərinin doğru olduğuna inandırmalıdır. Ona görə də ilk çıxış edən iştirakçılar münsiflərə özlərinin arqumentlər sistemini təklif etməlidirlər. Debat zamanı komanda üçün əsas məsələ onun bütün iştirakçılarının əsas arqumentləri aydın, səlis və inandırıcı şəkildə təqdim etməsidir.

Sonra inkaredici komandanın vəzifəsi isə opponentlərin arqumentlərini təkzib etməkdir. Onlar təkliflərlə razı deyillər və münsiflərin diqqətinə problemə yanaşmada əks mövqeyi təqdim edirlər. İlk çıxış edən təklif olunan baxışların müdafiəsi üçün öz arqumentlərini irəli sürür. Komandanın çıxış edən digər üzvləri isə onun baxışlarını təkidlə müdafiə edirlər. Bir daha qeyd olunmalıdır ki, tərəflər öz mövqelərinin düzgünlüyünə qarşı tərəfi deyil, münsifləri inandırmağa çalışmalıdırlar. Debatlarda şagirdlərdən bir nəfər vaxt ölçən rolunu ifa edir. O,

vaxta nəzarət edir. Sinfin qalan şagirdləri debatlarin gedişini müşahidə edir və tərəflərin dəlillərini aşağıdakı cədvəldə qeyd edir:

| Təsdiqedici tərəfin dəlilləri | İnkaredici tərəfin dəlilləri |
|---|---|
| | |

Debatların sonunda dəlillərin inandırıcılığı, spikerlərin mübahisə aparmaq qabiliyyətləri müzakirə edilir və nəticədə qələbə tərəflərdən birinə verilir. Debat formasında dərs üçün münsiflər heyətinin əvvəlcədən seçilməsi məqsədəuyğundur. Münsiflər heyəti komandaların iştirakçılarını qiymətləndirir və debatların nəticələrini yekunlaşdırır (5, s. 69).

**Məqalənin aktuallığı.** Ənənəvi təlim metodları ilə keçirilən dərslərdən fərqli olaraq yeni təlim metodları ilə keçirilən dərslər tamamilə şagirdlər tərəfindən daha maraqla qarşılanır və şagirdlərin yüksək səviyyədə formalaşmasına şərait yaradır.

**Məqalənin elmi yeniliyi.** Ən başlıcası, qiymətləndirmə məqsədyönlü olmalıdır. Məqsədyönlü qiymətləndirmə prioritetləri müəyyən etməyə, qərarlar qəbul etməyə və onu reallaşdırmağa kömək edir. Məqsədlər nə qədər dəqiq müəyyən olunarsa, qiymətləndirmə bir o qədər dəqiq, keyfiyyətli və obyektiv olur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Bu isə ondan ibarətdir ki, ümumtəhsil məktəblərinin tarix müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində irəli sürdüyümüz metodik üsullardan istifadə edə bilərlər.

## Ədəbiyyat

1. F.N. İbrahimov, R.L. Hüseynzadə. Pedaqogika. Dərslik, I cild. Bakı, 2012, 706 s.
2. Əmirov M. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası (Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti). Bakı, 2011, 707 s.
3. E. Hüseynov, S. Bəhrəmova. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün "Ümumi tarix" fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı "Şərq-Qərb", 2018, 144 s.
4. Veysova Z. Fəal (interaktiv) təlim. Müəllimlər üçün vəsait. Bakı, UNICEF, 2007, 156 s.
5. Azərbaycan Respublikasının Ümumtəhsil məktəbləri üçün "Azərbaycan tarixi" fənni üzrə təhsil proqramı (kurikulumu), V-XI siniflər. Bakı, 2013, 144 s.

**М.М. Гасанов**

## Оценка достижений учащихся при интерактивном обучении на уроках истории

## Резюме

В статье рассматривается современная оценка. Отмечается, что суть современного образования основывается не только на оценивании знаний, но и жизненных навыков. В статье подчеркивается важность эффективных методов повышения качества образования в средних школах и в оценке успеваемости учащихся.

**M.M. Hasanov**

## Assessment of student's achievements during interactive learning in history classes


## Summary

The article discusses modern assessment. It is noted that the essence of modern education is based not only on the assessment of knowledge, but also life skills. The article stresses the importance of effective methods to improve the quality of education in secondary schools and in assessing student performance.


**Redaksiyaya daxil olub:** 25.07.2022